# Xalqa ləyaqətli xidmət örnəyi



***Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də, öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Dünya tarixində ilk prezident andiçməsi mərasimi 1789-cu il aprelin 30-da Amerika Birləşmiş Ştatlarında keçirilib. Bu ölkənin ilk prezidenti Corc Vaşinqton Nyu-York şəhərində vəzifə səlahiyyətlərinə başlamazdan əvvəl Bibliyaya əl basaraq and içib. Mərasim simvolik mənada tacqoymanın analoqu kimi qəbul olunub. ABŞ prezidentlərinin böyük əksəriyyəti bu ənənəni davam etdirib.***

Ali səviyyədə and içmək sözün əmələ çevriləcəyinə əminlik yaratmaq məramını rəsmiləşdirmək törənidir. Başlanan missiyanı şərəflə daşımaq amalı, nə olursa-olsun, "...döndü yox!" zəmanətidir. Müstəqil Azərbaycanda da dövlət başçısının andiçmə mərasimləri böyük təntənə ilə keçirilir və özündə xalq, millət naminə açıqlanan fəaliyyət proqramının pozulmaz andla möhürlənməsi, imzalanması anlamını ehtiva edir.

...Elə bil dünən idi. Azərbaycan xalqı növbəti dəfə prezident seçkilərinə getdi və fəaliyyətdə olan dövlət başçısı İlham Əliyev inamlı qələbə qazandı. Mərkəzi Seçki Komissiyasının ilkin nəticələrinə görə, seçicilərin dörddə-üçü səsvermədə iştirak etmiş, onların da 86 faizdən çoxu yenidən İlham Əliyevə etimad göstərmişdi. Həmin gün Prezidenti təbrik üçün minlərlə adam küçələrə çıxdı, xalq gəzintisi gecə səhərədək davam elədi.

Bildiyimiz kimi, 26 sentyabr 2016-cı il referendumu ilə ölkə Konstitusiyasına edilmiş dəyişikliklərə görə, 2018-ci il aprelin 11-də Azərbaycan Prezidenti daha əvvəlki kimi, beş illik deyil, ilk dəfə olaraq yeddi illik müddətə ölkəyə rəhbər seçildi. Ondan bir həftə sonra, aprelin 18-də Milli Məclisdə düzənlənən andiçmə mərasiminin həyəcan dolu anlarını da yaxşı xatırlayırıq. Hərbçilər dövlət bayrağını və Prezidentin standartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər. Konstitusiya Məhkəməsinin müvafiq qərarı ilə seçkilərin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrinin təsdiq olunduğu və cənab İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti elan edildiyi bildirildi. Alqışlarla qarşılanan ölkənin ən ali məqam sahibi əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq dedi: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!"

***(ardı 4-cü səhifədə)***

# Xalqa ləyaqətli xidmət örnəyi




*(əvvəli 1-ci səhifədə)*

Sonra Dövlət himni səsləndi. Ardınca Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi ki, Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacaq, onları daim uca tutacaq. Mərasimdə söylədiyi nitqində cənab İlham Əliyev xalqın dəstəyini daim hiss etdiyini bildirdi, bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyimizi böyük inamla bəyan etdi.

Beləliklə, Azərbaycan xalqı sevimli Prezidentinin rəhbərliyi ilə daha böyük əzmlə yeni zirvələrə doğru irəlilədi. Bu yüksəlişin ən pik nöqtəsi isə 2020-ci ilin payızında başlanan Vətən müharibəsində erməni işğalçıları üzərində böyük Qələbəmiz oldu. Füzuliyə, Cəbrayıla, Hadruta, Şuşaya... üçrəngli Azərbaycan bayrağı sancıldı.

Həmin il bir müddət əvvəl Rusiyada Vladimir Putin yenidən Prezident seçilmiş, Ermənistanda isə terrorçu Serj Sarkisyan vəzifəsi ilə vidalaşmışdı. Yenilənmə zərurətinin dalğaları Serj Sarkisyandan fərqli şəkildə öz xalqının cəfakeşi olan İlham Əliyev üçün çox uğurlu oldu. Çünki dövlətimizin başçısı öz xidmətləri müqabilində Azərbaycan xalqı tərəfindən həqiqi ehtiram və sevgi ilə əhatə olunmuşdu. O yaz Ermənistanda "sorosçu", populist Nikol Paşinyan hakimiyyətə gəldi və bununla da işğalçı qonşu dövlətin uçuruma yuvarlanma ehtimalı daha da artdı və son nəticədə düşmən Qarabağ savaşında acı məğlubiyyətə uğradı. Azərbaycanın isə mövqeləri dünya çapında daha da möhkəmləndi.

İftixarla deyə bilərik ki, o tarixi gündən ötən dörd ildə xalqa verilmiş vədlər bütünlüklə yerinə yetirilib, əhalinin maddi rifahı xeyli yaxşılaşıb və Qarabağ, nəhayət, azad edilib. Beləliklə, milli qeyrət pərvərişimizi təsdiqləyən, qalib xalq adını baş tacımıza çevirən parlaq səhifələr yazılıb. Bunlar hamısı Prezident andının hünərlə urvatlanması, sözün əməllə möhkəmlənməsi, öhdəliyin real nəticələrlə sonuclanması deməkdir.

Dördillik zaman kəsiyi bir daha bizim çox doğru seçim etdiyimizi göstərdi. Ona görə bir daha deyirik ki, əvvəlki üç seçkidə də vəd edilənlər bütünlüklə həyata keçirilmiş, sözlə əməlin möhkəm birliyinə nail olunmuşdu. Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində bu məqama da toxundu: "Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

Ümumiyyətlə, 2018-ci il çox mühüm, yaddaqalan hadisələrlə zəngin olub. Azərbaycanın həm regionda, həm də beynəlxalq arenada uğurlu dövlət statusu bir daha təsdiqlənib. Prezident seçkilərindən sonra Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar davam edib, həmçinin Azərbaycan mötəbər siyasi platformalarda təmsil olunub. İqtisadi sahədə böyük canlanma yaranıb, qeyri-neft sektorunun inkişafı xaricdə «Made in Azerbaijan» brendinin geniş tanınmasını şərtləndirib. Turizm sektoru genişlənib. Azərbaycan qlobal enerji diversifikasiyasına töhfələr verib və ölkəmizin iri beynəlxalq nəqliyyat qovşağı kimi önəmi artıb.

Həmin ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 yaşı tamam olub, Prezident sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib və respublikanın yubileyi dövlət səviyyəsində mühüm tədbirlərlə qeyd olunub. Mayda Səngəçal terminalında Azərbaycan qazının Avropaya nəqli üçün nəzərdə tutulan "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı reallaşıb. Heydər Əliyev Beynəlxalq Aeroportu "Beş ulduz" maksimal statusuna layiq görülüb. Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının, iyunda isə Türkiyənin Eskişehir şəhərində TANAP qaz kəmərinin təntənəli açılış mərasimi olub. Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Azadlıq meydanında möhtəşəm hərbi parad keçirilib. Avqustda 22 illik danışıqlardan sonra Aktauda V Xəzər sammitində bu dənizin statusu haqqında Konvensiya imzalanıb. Bu sənəd özünəməxsus "Xəzər Konstitusiyası" sayılır. İl ərzində Azərbaycana və Azərbaycandan bir sıra rəsmi və işgüzar səfərlər reallaşıb. İtaliya, Türkiyə, Türkmənistan, Serbiya və Rusiya prezidentləri, Almaniyanın kansleri Bakıya gəliblər. Paytaxtda önəmli beynəlxalq tədbirlər – VI Humanitar Forum və VI Qlobal Forum keçirilib. Sentyabrda Azərbaycanın üçüncü peyki – "Azərspase-2" Fransanın Qviana kosmik mərkəzindən orbitə çıxarılıb və bununla da "Azərkosmos"un beynəlxalq imkanları genişlənib. Oktyabrda Azərbaycanın yeni milli turizm brendi təqdim olunub. "Dədə Qorqud" eposu və "Yallı" rəqsi UNESCO-nun siyahısına daxil edilib. Bakıda ünlü "Formula 1" yürüşləri keçirilib. Başqa sözlə, həmin il dünya Bakı havası ilə daha çox nəfəs alıb.

Bəli, uğurlu siyasi kurs, ölkəmizin dünyaya islahatçı, region lideri, güclü iqtisadiyyata malik dövlət kimi tanıdılması Azərbaycana inamlı qələbələr qazandırır. Prezidentimizin nəhəng infrastruktur layihələrinə imza atması və ölkəmizin tranzit imkanlarını reallaşdırmaq üçün var gücü ilə çalışması olduqca ciddi addımlar sayılır. Hər kəs dövlət başçımızın dediyi sözün, verdiyi vədin sahibi olmasına, "Sözümüz imzamızdır!" prinsipinə daim əməl etməsinə şahiddir. Azərbaycan rəhbəri İlham Əliyev ən sadiq silahdaşı, ömür-gün yoldaşı Mehriban xanım Əliyeva ilə birlikdə zirvələr fəth etməklə yeni-yeni uğurlara imza atmaqdadır. Seçimində zərrəcə yanılmayan xalqımız isə bu gün ürəkdən inanır ki, çox tezliklə Qarabağda və Şərqi Zəngəzurda bərpa olunan şəhərlərə, qəsəbələrə "Böyük Qayıdış" başlayacaq. 30 ildən çox o torpaqlar üçün qəribsəmiş soydaşlarımız təzə yurdlarında məhz cənab İlham Əliyevin xeyir-duası ilə yeni həyatlarına başlayacaqlar.

Ölkəmizin hər bir guşəsində inkişaf, tərəqqi var. Döyüşərək, qan tökərək geri qaytardığımız ərazilərdə isə bərpa-quruculuq işlərinin miqyası genişlənir, sürəti artır. Evlər tikilir, yollar çəkilir, meşə zolaqları salınır, enerji xətləri el-obaya nur daşıyır. Fenomenal iradə sahibi olan müdrik rəhbərin uğurlu səyləri ilə xalqın yaradıcı enerjisi işıqlı sabahlara uğurla transformasiya olunur.

Bir qələm dostum demişkən, hər lider qəhrəman olmur, hər qəhrəman lider olmur. Bu məqama yalnız İlham Əliyev kimi daim öz vətəndaşlarının yanında olan müdrik şəxsiyyətlər yüksələ bilirlər. Azərbaycanda rəhbərə xalq sevgisinin, seçici etimadının aşkar təntənəsi belə deməyə əsas verir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***